Azadliq Prospekti 83
370007 Baku, Azerbaijan
Phone: ++ (99412) 498 03 35
Fax: ++ (99412) 498 93 12
E-mail: mirzoyevaso@state.gov
Web: http://baku.usembassy.gov

RELEASE NEWS

THE PUBLIC AFFAIRS SECTION / EMBASSY OF THE UNITED STATES OF AMERICA

# OKTYABRIN 12-13-Ü AZƏRBAYCAN RESPUBLİKASI VƏ AMERİKA BİRLƏŞMİŞ ŞTATLARI HÖKUMƏTLƏRİ QARA DƏNİZ VƏ XƏZƏR DƏNİZİNDƏ KÜTLƏVİ QIRĞIN SİLAHLARININ YAYILMASININ QARŞISININ ALINMASINA DAİR BİRGƏ KONFRANS KEÇİRƏCƏKLƏR

11 oktyabr, 2005

Oktyabrın 12-13-ü Bakıda Azərbaycan Respublikası və Amerika Birləşmiş Ştatları hökumətlərinin Qara Dəniz və Xəzər Dənizində kütləvi qırğın silahlarının yayılmasının qarşısının alınmasına dair birgə konfransı keçiriləcəkdir. Konfransın əsas məqsədi - Xəzər Dənizi və Qara Dəniz regionunda dəniz mühafizə qurumları arasında işgüzar əlaqələrin inkişafını davam etdirmək və məlumat mübadiləsi yolu ilə su ərazilərindəki biliklərin daha yaxşı paylaşdırılmasıdır.

Konfransda Azərbaycan, Bolqarıstan, Gürcüstan, Qazaxıstan, Moldova, Rumıniya, Türkiyə, Türkmənistan və Ukraina hökumətlərinin Sahil Mühafizəsi, Sərhəd Polisi və Dəniz Dəstələri iştirak edəcəkdir.

Konfransın açılışında Azərbaycan Respublikası Dövlət Sərhəd Xidmətinin Rəisi, general-leytenant Elçin Quliyev və Amerika Birləşmiş Ştatlarının Azərbaycandakı səfiri cənab Rino Harnish çıxış edəcəklər. ABŞ Sahil Mühafizəsi qüvvələrinin Kontr-Admiralı Con Kurrier konfransda əsas natiq olacaqdır.

Ayrı-ayrı ölkələr konfransda kütləvi qırğın silahlarının və dəniz qaçaqmalçılığının qarşısının alınması sahəsində gəstərdikləri səylər barədə prezentasiya edəcəklər. Konfrans masaarxası seminarla işini davam etdirəcəkdir.

Konfrans Hayat Recensi mehmanxanısının Quba Zalında keçiriləcək. Mətbuat nümayəndələri oktyabrın 12-i, saat 08:45-10:30-da konfransın açılışında iştirak edə bilərlər.